**Mirzəyev E.A.K., Kərimov Ş.M.♦**

**UOT: 343**

# Məhkəmə mərhələsində dövlət ittihamının həyata keçirilməsinin nəzəri və hüquqi əsasları

**Xülasə:** Məqalə məhkəmə mərhələsində dövlət ittihamının həyata keçirilməsinin nəzəri və hüquqi əsaslarına həsr olunub.

Məqalədə həmçinin dövlət ittihamçısı məhkəmədə ictimai yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxs kimi araşdırılır. Məhkəmə baxışında prokurorun dövlət ittihamçısı qismində çıxış etməsi cinayət-mühakimə icraatında qanunların dürüst və dönmədən icrası üzərində prokuror nəzarətinin həyata keçirilməsi formalarından biri kimi qeyd olunur

Həmçinin, məqalədə yeni CPM-ə uyğun olaraq respublikamızın prokurorluq orqanlarında post sovet ölkələrindən fərqli olaraq dövlət ittihamını müdafiə edən idarə və şöbələrin yaradılması qaydası da göstərilir.

**Açar sözlər:** dövlət ittihamçısı; prokuror; cinayət təqibi; ictimai-xüsusi ittiham; məhkəmə baxışı; funksiya; protest; təqsirləndirilən şəxs.

Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyasından fərqli olaraq 12 noyabr 1995-ci il konstitusiyasının 133-cü maddəsinin birinci bəndində prokurorluq Məhkəmə hakimiyyətinin tərkib hissəsi kimi göstərilir:

Azərbaycan Respublikasının Prokurorluğu qanunda nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir [1, s. 51].

Azərbaycan Respublikaının Cinayət-Prosessual Məcəlləsinin 84-cü maddəsində prokurorun vəzifələrindən biri kimi məhkəmədə cinayət işi üzrə ittihamı müdafiə etmək göstərilir.

**İşin məqsədi:** Azərbaycan Respublikasının cinayət prosessual qanunvericiliyində dövlət ittihamçısı olan prokurorun məhkəmədəki rolunu, səlahiyyətlərini və vəzifələrini analiz etməkdir. Məqalədə, həmçinin dövlət ittihamçısının cinayət təqibi və məhkəmə icraatında iştirakının hüquqi çərçivəsi, Sovet dövründən müstəqillik illərinə qədərki dəyişikliklər və prokurorun məhkəmə baxışı mərhələsindəki funksiyaları haqqında da müfəssəl məlumat verilmişdir.

AR CPM-nin 7.0.20-ci maddəsində göstərilir ki, ittiham – şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməli törətməsinin israr edilməsidir. İttiham tərəfinə aid olan prokuror isə 7.0.23-cü maddəyə əsasən qanunda nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxsdir [2, s. 37].

Hüquq ensiklopedik lüğətində göstərilir ki, ittiham cinayət prosesində səlahiyyətli orqanların və şəxslərin cinayət məsuliyyətinə cəlb edilən şəxsin təqsirini sübut etməkdən ibarət fəaliyyətidir.

♦ **Mirzəyev Emil Ağa Kərim oğlu** - AR Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarənin böyük prokuroru, ədliyyə müşaviri (Azərbaycan).
**Kərimov Şöhlət Müzəffər oğlu** - MAA-nın "Hüquq" kafedrasının dosenti, h.f.d. (Azərbaycan). E-mail: sohlet.kerimov@mail.ru

Eyni zamanda ittiham hökmündə ifadə edilmiş tezisin məzmunu, ittihamçının irəli sürdüyü və öz nitqində şərh etdiyi ittihamın ifadəsidir [3, s. 200]. Azərbaycan SSR-in 1961-ci il CPM-nin 150-ci maddəsinə əsasən ittiham sübut edilmiş cinayətin təsviri deməkdir.

Cinayət prosessual qanunvericiliyin inkişaf tarixinə nəzər salsaq görürük ki, yeni qanunlar qəbul edilsə də, qanunlara əlavə və dəyişiklər edilsədə hüquq ədəbiyyatında dövlət ittihamçısı barədə professor C.H. Mövsümovun mövqeyi dominant olaraq qalır. C.H. Mövsümov yazır: Prokuror məhkəmə baxışı mərhələsində ittihamçısı kimi çıxış edir. Prosesin bu mərhələsində prokurorun dövlət ittihamçısı sifətində çıxış etməsi cinayət mühakimə icraatında qanunların dürüst və dönmədən icrası üzərində prokuror nəzarətinin həyata keçirilməsi formalarından biridir. Lakin prokurorun məhkəmə baxışında prosesual vəziyyəti onun cinayət işi başlama və ibtidai araşdırmada olan prosessual vəziyyətindən ciddi fərqlənir. Əgər prokuror məhkəməyə vermə mərhələsinə qədər rəhbərlik etmək və sərəncam vermək hüququna malik idisə məhkəmə baxışı mərhələsində, bərabər hüquqa malik olan proses iştirakçısı kimi çıxış edir. Məhkəmə baxışının bütun gedişatına məhkəmə rəhbərlik edir. Cinayət işi üzrə çıxarılan bütün qərarlar proses iştirakçılarının, o cümlədən prokurorun rəyindən və mülahizəsindən asılı olmayaraq hakimlər tərəfindən müstəqil qəbul edilir. Lakin bu heç də məhkəmə baxışında prokurorun iştirakının əhəmiyyətini azaltmır. Prokuror dövlət adından və dövlətin marağına müvafiq olaraq məhkəmə baxışında dövlət ittihamçısı kimi çıxış etməklə məhkəmə tərəfindən qanuni, əsaslı və ədalətli hökm cıxarılmasında yaxından kömək edir. Prokuror məhkəmədə dövlət ittihamını müdafiə etməklə, həm də qanunlara dürüst əməl edilməsi üzərində nəzarəti həyata keçirən orqanın nümayəndəsi kimi fəaliyyət göstərməkdə davam edir. Əgər, bu səbəbdən məhkəmə baxışı gedişatında qanunun pozulması halları baş verərsə, bu pozuntunun kim tərəfindən edilməsi və eləcə də kimin marağına toxunmasından asılı olmayaraq, prokuror bunu məhkəmənin nəzərinə çatdırılmalı və onun aradan qaldırılmasına nail olmalıdır [4, s. 118].

Prokuror, dövlət mənafeyi və ictimai mənafeyin və ya vətəndaşların hüquqların qorunması tələb edilən hallarda mülki iddia verməyə və zərərçəkmiş şəxs tərəfindən verilmiş mülki iddianı müdafiə etməyə haqlıdır.

Məhkəmə baxışı mərhələsində çıxarılan aktların qanuniliyi üzərində nəzarəti həyata keçirən prokuror məhkəmənin hər bir qanunsuz və əsassız hökmündən, qərardad və qərarından vaxtında protest verməyə borcludur.

Azərbaycan Respublikasının 14 iyul 2000-ci ildə qəbul edilən CPM-si (mad.7.0.18) dövlət ittihamçısı olan prokuroru cinayət prosesinin iştirakçıları qisminə daxil edir. Qeyd etmək lazımdır ki, sovet hüquq ədəbiyyatında bəzi müəlliflər, o cümlədən M.A.Çeltsov və D.S.Karev dövlət ittihamçısı olan prokuroru cinayət prosesinin iştirakçıları sırasına daxil eləmirdilər. Onlar dövlət ittihamçısını məhkəmə baxışının iştirakçıları sırasına daxil edirdilər. Məhkəmə baxışının iştirakçıları anlayışı cinayət prosesinin iştirakçıları anlayışından öz məzmunu etibarilə məhduddur. Məhkəmə baxışı iştirakçılarını cinayət prosessual fəaliyyətin subyektləri hesab edirdilər [5, s. 71-72]. Digər qrup alimlər, məsələn, M. Straqoviç, V.Bojyev, C.Mövsümov və b. dövlət ittihamçısı olan prokuroru cinayət prosesinin iştirakçısı sırasına daxil edirdilər [4, s. 110]. Bunlar öz mövqelərini onunla əsaslandırırlar ki, dövlət ittihamçısı kimi prokuror müəyyən prosessual funksiyanı yerinə yetirirlər.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra 07 dekabr 1999-cu ildə “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Həmin qanun VIII fəsil, 45 maddədən ibarətdir. “Prokurorluq haqqında” Qanunun “Prokurorluğun fəaliyyət istiqamətləri

adlanan 4-cü maddəsində göstərilir ki, prokuror ... məhkəmədə iddia qaldırır (ərizə verir) mülki və iqtisadi (kommersiya) mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir; məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir; dövlət ittihamını müdafiə edir və məhkəmə qərarlarından protest verir" [6, s. 2]. Qanunun 19-cu maddəsi "Ədalət mühakiməsinin həyata keçirilməsində prokurorun iştirakı və dövlət ittihamının müdafiəsi"nə həsr olunub. Həmin maddədə qeyd olunur ki, hakimlərin müstəqilliyi və onların yalnız qanuna tabe olması prinsipinə dönmədən əməl edilməklə prokurorlar Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmələrdə cinayət işlərinə birinci instansiya, appelyasiya və kassasiya qaydasında baxılmasında tərəf kimi iştirak edir, rəy verir, dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı qismində iştirak edir, məhkəmə qərarlarından protest verir. Həmin maddədə daha sonra göstərilir ki, ibtidai istintaqı aparan və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dövlət ittihamını müdafiə edə bilməz.

Ədalət mühakiməsinin həyata keçirilməsində ittihamı sübutetmə vəzifəsi prokurorun üzərinə düşür. Sovet dövründəki cinayət-prosessual qanunvericilikdə sübutetmə vəzifəsi müttəhimin (təqsirləndirilən şəxsin) üzərinə qoyulurdu. Bu da insan və vətəndaş hüquqlarının pozulmasına gətirib çıxarırdı.

"Prokurorluq haqqında" qanuna əsasən toplanmış sübutlarla ittiham təsdiq edilmirsə və imtinaya əsaslar varsa prokuror ittihamı müdafiə etməkdən tam və qismən imtina edir.

Ümumiyyətlə, dövlət ittihamçısının ədalət mühakiməsinin həyata keçirilməsindəki səlahiyyətləri Azərbaycan Respublikasının cinayət prosessual qanunvericiliyi ilə müəyyən edilir.

Prokurorluq haqqında qanunun 27-ci maddəsi məhkəmə qərarlarından protest verilməsi qaydalarına həsr olunub.

Prokuror Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmə qərarlarından protest verir.

AR CPM-nin 7.0.46-cı maddəsinə əsasən, protest – dövlət ittihamçısının iştirak etdiyi cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hökmdən və ya məhkəmənin digər qərarından prokurorun yuxarı məhkəməyə verilən şikayətidir. Qeyd etmək lazımdır ki, protest prokurorun iştirak etdiyi iş üzrə məhkəmə qərarından onun yuxarı məhkəməyə verdiyi şikayətdir və öz hüquqi statusuna, hüquqi nəticələrinə görə digər tərəfin şikayətinə bərabər tutulur. Yeri gəlmişkən onu da demək lazımdır ki, protest baxılanadək onu vermiş prokuror, yaxud yuxarı prokuror tərəfindən geri götürülə, yaxud başqa protestlə əvəz oluna bilər.

Professor F.M.Abbasova göstərir ki, dövlət ittihamçısı cinayət mühakimə icraatının məhkəmə mərhələsində cinayət təqibinin ictimai və ya ictimai xüsusi ittiham qaydasında həyata keçirildiyi hallarda dövlət ittihamını müdafiə edən prokurordur [7, s. 201]. Dövlət ittihamçısı üçün cinayət təqibinin həyata keçirilməsi vəzifə qismində nəzərdə tutulmuşdur və o, bu vəzifəni öz adından və öz mənafeləri naminə deyil, dövlətin adından həyata keçirir [8, s. 130].

Sovet dövründə məhkəmələrdə çıxış edən dövlət ittihamçıları ilə müstəqillik illərində respublikamızın məhkəmələrində fəaliyyət göstərən dövlət ittihamçıları arasında müəyyən fərqli cəhətlər var. Beləki, əvvəlki cinayət-prosessual qanunvericiliyə əsasən ittiham aktını təsdiq edən prokuror istisna olmaqla rayon (şəhər) prokurorları prokurorun müavinləri, prokuror köməkçiləri, hətta bəzi rayonlarda həmin cinayət işinin istintaqını aparmayan müstəntiqlər də dövlət ittihamçısı qismində məhkəmələrdə çıxış edirdilər.

Müstəqillik illərində 07 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununun və yeni CPM-yə uyğun olaraq Azərbaycan Respublikasının Baş Prokurorunun 21.11.2007-ci il tarixli əmri ilə "Azərbaycan Respublikasının Baş Prokurorluğunun "Dövlət ittihamının müdafiəsi üzrə idarəsi" haqqında Əsasnamə təsdiq edilmişdir. Həmin Əsasnaməyə 24.12.2010-cu il tarixli 10/117-11/15-s №-li əmrlə əlavə və dəyişiklik edilmişdir [9].

Azərbaycan Respublikası Baş Prokurorunun 30 iyul 2020-ci il tarixli əmri ilə "Azərbaycan Respublikasının Baş Prokurorluğunda işin təşkili qaydaları" təsdiq olunmuşdur. Həmin qaydaların 9-cu bölməsi "Dövlət ittihamının müdafiəsi üzrə idarə"nin fəaliyyətinə həsr olunub. Qaydaların 13.1 maddəsində göstərilir ki, Dövlət ittihamının müdafiəsi üzrə idarə cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə dövlət ittihamçısı qismində prokurorun iştirakı yolu ilə məhkəmədə dövlət ittihamının müdafiəsini təmin edir [10].

"Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim CPM-ə müvafiq olaraq dövlət ittihamçısına verilməsi nəzərdə tutulmuş prosessual sənədləri və digər məlumatları onun həmin sistemdə yaradılmış elektron kabinetində yerləşdirir və bu barədə ona həmin sistem vasitəsilə elektron qaydada məlumat verir.

AR CPM-in 51-1.9-cu maddəsində isə "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə dövlət ittihamçısı CPM-in 84.6-cı maddəsində nəzərdə tutulmuş prosessual hərəkətlər üzrə elektron sənəd formasında tərtib edilmiş prosessual sənədləri "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə məhkəməyə təqdim edə bilər [2, s. 74].

Cinayət Prosessual Qanunu üç cinayət prosessual funksiyasını özündə ehtiva edir: ittiham, müdafiə və cinayət işinin həlli (Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin VII-IX fəsillər). Ənənəvi olaraq, hüquq ədəbiyyatında bu funksiyalar əsas funksiyalar hesab olunur.

İ.Y.Foynitskiy ittihamı cinayət prosesində dövlətə aid cəza hüququnun məhkəmə tərəfindən tanınması tələbi olaraq başa düşür.

Bununla belə, bir sıra alimlər ittiham dedikdə yalnız müəyyən bir şəxsin cinayət qanunu ilə qadağan edilmiş əməlin törətməsi iddiasını özündə ehtiva edən prosessual aktı deyil, eyni zamanda ittihamedici tezisin formalaşdırılmasına imkan verən fəaliyyəti başa düşürlər. Beləliklə, A. V. Qoryainov ittihamın dar mənada ittihamedici sübutları formalaşdırmaq üçün həmin tərəfin prosessual hərəkətlərinin məcmusu olduğunu qeyd edir [11, s. 17]. V.M.Savitski ittihamı funksiya və sübut predmeti kimi fərqləndirilməsinin mümkün və zəruri olduğunu, ancaq birini digərindən ayırmağın mümkün olmadığını vurğulayır. Digər müəlliflər də ittihamda iki komponentin – maddi-hüquqi və ittiham fəaliyyətinin mövcudluğuna işarə edirlər. M.Cəfərquliyev prosessual mənada ittiham dedikdə cinayət törətməkdə təqsirləndirilən şəxsi ifşa etmək və cinayət məsuliyyətini əsaslandırmaq üçün prosessual fəaliyyəti, maddi-hüquqi mənada ittiham dedikdə isə müəyyən bir cinayət əməli yaradan, konkret şəxs üçün təsbit edilmiş və məsul sayıla bilən sosial təhlükəli, qanuna zidd faktların məcmusunu başa düşür [12, s. 134]. Təqsirləndirilən fəaliyyətin əsas məqsədi və nəticəsi ittihamçı tezisinin hazırlanması, sübutu və müdafiəsi olduğu üçün praktik olaraq ittihamın iki komponentə bölünməsinin şərti olduğu qəbul edilməlidir. İttiham tərəfi məhkəmə icraatının məzmununu və istiqamətini müəyyənləşdirir və yalnız çəkişmə prinsipi olan cinayət prosesində müstəqil prosessual qurum kimi çıxış edir. İttihamçının müstəqilliyi ittiham tərəfini dəstəkləmək üçün səlahiyyətli xüsusi qurumların olması və ittihamı dəstəkləməyin xüsusi prosessual forması ilə sübut olunur. İttihamın prosessual mahiyyəti məhkəmə orqanlarına ünvanlanan tələbdir və bir şəxsin təqsirini müəyyənləşdirmək və ona qarşı cinayət cəzalarını tətbiq etmək məqsədilə tədbirlərin görülməsi üçün bir öhdəlik yaradır.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 84.4-cü maddəsinə və Azərbaycan Respublikası Baş prokurorluğunda işin təşkili Qaydalarında (30 iyul 2020-ci ildə təsdiq olunub) göstərilir ki, məhkəmələrdə ictimai və ictimai xüsusi ittiham üzrə işləri dövlət ittihamçısı qismində "Dövlət ittihamının müdafiəsi üzrə idarə"nin prokurorları müdafiə edir. Rusiya Federasiyasının CPM-də bu məsələ fərqlidir. Bu məsələ Azərbaycan Respublikasının qanunvericiliyində daha məqsədəuyğundur. Respublikamızda son illər həyata keçirilən uğurlu islahatlar məhkəmə-hüquq sistemində daha çox gözə çarpır.

Rusiya Federasiyası Cinayət Prosessual Məcəlləsinin 5-ci maddəsinin 47-ci bəndinə uyğun olaraq ittihamçı qismində prokuror, habelə müstəntiq, istintaq idarəsinin rəisi, xüsusi ittihamçı, zərərçəkmiş, onun qanuni nümayəndəsi və nümayəndəsi, mülki iddiaçı və onun nümayəndəsi çıxış edir. Cinayət təqibini hansı qurum həyata keçirdiyindən asılı olaraq, ictimai, xüsusi-ictimai və xüsusi olaraq təyin olunur. İctimai cinayət təqibi prokuror, habelə müstəntiq, istintaq idarəsinin rəisinin şəxsində xüsusi səlahiyyətli subyektlər tərəfinfən dövlət adından həyata keçirilir. Bu subyektlərin cinayət törətməkdə təqsirləndirilən şübhəlinin ifşa olunması məqsədilə həyata keçirilən prosessual fəaliyyətinə dövlət ittihamının funksiyası da deyilə bilər [13, s. 22].

RF-dan fərqli olaraq Azərbaycan Respublikasında məhkəmədə dövlət ittihamını AR CPM-ə və Azərbaycan Respublikası Baş Prokurorluğunun işin təşkili qaydaları haqqında təlimata uyğun olaraq yalnız dövlət ittihamçısı olan prokuror dövlət ittihamını müdafiə edə bilər. Məhkəmənin icraatına müvafiq olaraq cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının daxil olması, məhkəməyə vəsatət və ərizələrin göndərilməsi qaydası və müddətinin izahı daxil olmaqla hüquq və vəzifələrin izahı məhkəmənin hazırlıq iclasında iştirak etmək üçün məhkəməyə gəlməyin vaxtı barədə bildiriş prokurorluğa daxil olduqdan dərhal sonra dəftərxana tərəfindən birbaşa dövlət ittihamçısına və ya idarənin və tabe şöbələrin rəislərinə təqdim edilir.

Prokuror cinayət prosesinin bütün məhkəmə mərhələlərində ittihamçını dəstəkləyir, çünki bütün bu mərhələlərdə qanun onu tərəf adlandırır. Qeyd etmək lazımdır ki, cinayət işi məhkəmə tərəfindən həll edildikdən sonra növbəti instansiyalarda işə baxılması üçün əsaslar olduqda, ittiham fəaliyyəti tamamlanmış hesab edilə bilməz. Bu hallarda prokurora xüsusi vəzifələr həvalə olunur ki, onların icrası cinayət təqibinin həyata keçirilməsi kimi qiymətləndirilə bilər.

Dövlət ittihamçısının əsas hüquqlarından biri də protest verməkdir. Məsələn, Bakı Ağır Cinayətlər Məhkəməsinin 27.10.2023-cü il tarixli 1(101)-104/2023 saylı hökmü ilə Q.E-yə bəraət hökmü verilmişdir. Bəraət hökmündən dövlət ittihamçısı V.M apellyasiya protesti vermişdir.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası 28.02.2024-cü ildə (1(103)-169/2024) işə baxaraq dövlət ittihamçısının protestini qismən təmin edərək, Q.E barəsində çıxarılmış bəraət hökmünü ləğv etmiş və ona Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə 1 (bir) il 6 (altı) ay müddətinə azadlıqdan məhrumetmə cəzası verilmişdir [14].

**İşin nəticəsində** göstərilir ki, Azərbaycan Respublikasında prokurorun dövlət ittihamçısı kimi çıxış etməsi, qanunvericilikdəki inkişaflarla sıx əlaqəlidir. 1995-ci il Konstitusiyası və daha sonra qəbul edilmiş qanunlar prokurorun məhkəmələrdəki rolunu daha aydın şəkildə müəyyənləşdirib. Prokuror həm ictimai, həm də xüsusi ittiham funksiyasını yerinə yetirərək, dövlətin adından qanunların tətbiqinə nəzarət edir, məhkəmələrdə dövlət ittihamını müdafiə edir və qanunsuzluq hallarında protest verərək ədalətin təmin edilməsinə kömək edir.

**Biblioqrafiya**

1. Azərbaycan Respublikasının Konstitusiyası. –Bakı: Hüquq Yayın Evi, 2023. - 61 s.
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. – Bakı: Hüquq Yayın Evi, 2024. - 799 s.
3. Hüquq esiklopedik lüğəti. - Bakı, 1991. - 200 s.
4. Mövsümov C.H. Azərbaycan SSR-in cinayət prosesi. Ümumi hissə. –Bakı: Maarif, 1980. - 235 s.
5. Уголовный процесс. Под ред. М.А. Чельцова. - М. 1969. - 464 с.
6. Prokurorluq haqqında Azərbaycan Respublikasının Qanunu. - Bakı, 2018.
7. Abbasova F.M. Cinayət Prosesi. Ümumi hissə. - Bakı, 2021. - 464 s.
8. Xəlilov F.Y. İbtidai araşdırmada ittiham tərəfi. – Bakı: Təfəkkür, 2011 -215 s.
9. Azərbaycan Respublikası Baş Prokurorluğunun "Dövlət ittihamının müdafiəsi üzrə idarəsi" haqqında Əsasnamə. Bakı, 21.11.2007-ci il
10. "Azərbaycan Respublikasının Baş Prokurorluğunda işin təşkili" AR Prokurorunun 30.07.2020-ci il tarixli əmri ilə təsdiq edilmişdir.
11. Горяинов А. В. Порядок подготовки к судебному заседанию в уголовном процессе России: автореф. дис. … канд. юрид. наук. Челябинск, 2004.
12. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının Cinayət Prosesi. – Bakı: Qanun, 2008. - 767 s.
13. Kərimov Ş.M., Həsənov E.H. Dövlət ittihamçısı. Dərs vəsaiti. – Bakı: Elm və Təhsil, 2022. - 196 s..
14. Bakı Apellyasiya Məhkəməsinin 28.02.2024-cü il tarixli 1(103)-169/2024 saylı hökmü

**Mirzaev E.A.K., Kerimov Sh.M.**♦

**UDC: 343**

## Theoretical and Legal Foundations of the Implementation of State Prosecution at the Judicial Stage

**Abstract:** The article is dedicated to the theoretical and legal foundations of the implementation of state prosecution at the judicial stage. The article also examines the role of the state prosecutor as a person defending public or public-private prosecution in court. The prosecutor's role as a state prosecutor during the trial is described as one of the forms of prosecutorial oversight over the strict and unwavering enforcement of laws in criminal proceedings. Furthermore, the article provides the procedure for the establishment of departments and divisions defending state prosecution

♦ **Mirzaev Emil Aga Kerim** - Senior Prosecutor at the Department of State Prosecution Defense of the General Prosecutor's Office of the Republic of Azerbaijan, Justice Adviser (Azerbaijan).
**Kerimov Shohlet Muzaffar** - PhD in Law, Associate Professor of the Law Department of the National Aviation Academy (Azerbaijan). E-mail: sohlet.kerimov@mail.ru

in the prosecutorial bodies of our country, which, unlike post-Soviet countries, is in line with the new Criminal Procedure Code.

**Keywords:** state prosecutor, prosecutor, criminal prosecution, public-private prosecution, judicial review, function, protest, accused person.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku: Law Publ., 2023. - 61 p. (in Azerbaijani).

2. Criminal Procedure Code of the Republic of Azerbaijan. Baku: Law Publ., 2024. - 799 p. in Azerbaijani).

3. Legal Encyclopedic Dictionary. - Baku, 1991. - 200 p. (in Azerbaijani).

4. Movsumov C.H. Criminal Procedure of the Azerbaijan SSR. General Part. – Baku: Maarif Publ., 1980. - 235 p. (in Azerbaijani).

5. Criminal Process. Textbook. Edited by M.A. Cheltsov. – Moscow, 1969. - 464 p. (in Russian).

6. Law of the Republic of Azerbaijan on the Prosecutor's Office. - Baku, 2018. (in Azerbaijani).

7. Abbasova F.M. Criminal Procedure. General Part. - Baku, 2021. - 464 p. (in Azerbaijani).

8. Khalilov F.Y. The prosecution in the preliminary investigation. – Baku: Tafekkur, 2011 - 215 p. (in Azerbaijani).

9. Regulations on the "Department for the Defense of State Prosecution" of the Prosecutor General's Office of the Republic of Azerbaijan. Baku, 21.11.2007 (in Azerbaijani).

10. "Organization of work in the Prosecutor General's Office of the Republic of Azerbaijan" approved by the order of the Prosecutor of the Republic of Azerbaijan dated 30.07.2020. (in Azerbaijani).

11. Goryainov A. B. Order of preparation for the court session in the criminal process of Russia: PhD in Law Diss. Abstract. Chelyabinsk, 2004. (in Russian).

12. Jafarguliyev M.A. Criminal Procedure of the Republic of Azerbaijan. - Baku: Qanun, 2008. - 767 p. (in Azerbaijani).

13. Kerimov Sh.M., Hasanov E.H. State prosecutor. Teaching aids. - Baku: Science and Education, 2022. - 196 p. (in Azerbaijani).

14. Judgement of the Baku Court of Appeal No. 1(103)-169/2024 dated 28.02.2024 (in Azerbaijani).

**Мирзоев Э.А.К., Керимов Ш.М.**♦

**УДК: 343**

## Теоретические и юридические основы осуществления государственного обвинения на стадии судебного разбирательства.

**Аннотация**: Рассматриваются теоретические и юридические основы осуществления государственного обвинения на стадии судебного разбирательства. В статье также исследуется роль государственного обвинителя как лица, защищающего публичное или публично-частное обвинение в суде. Выступление прокурора в качестве государственного обвинителя в судебном процессе рассматривается как одна из форм осуществления прокурорского надзора за строгим и непреклонным соблюдением законов в уголовно-процессуальном производстве. Также в статье приводится порядок создания управлений и отделов, защищающих государственное обвинение в органах прокуратуры нашей страны, в отличие от постсоветских стран, в соответствии с новым УПК.

**Ключевые слова:** государственный обвинитель; прокурор; уголовное преследование; публично-частное обвинение; судебное разбирательство; функция; протест; обвиняемый.

♦ **Мирзоев Эмиль Ага Керим оглы** - Главный прокурор Управления защиты государственного обвинения Генеральной прокуратуры Азербайджанской Республики, советник юстиции (Азербайджан).
**Керимов Шохлет Музаффар оглы** - доктор философии права, доцент кафедры «Право» Национальной Академии Авиации (Азербайджан). E-mail: sohlet.kerimov@mail.ru